## *Elegiya*

### *20 yanvar şəhidlərinin əziz xatirəsinə*

Bəlalıdı başımız,
Qurumur göz yaşımız.
Top-tüfəngdi qarşımız,
Obaları gəzir vay,
Haray, ay ellər, haray!

Dünya bizə dar olub,
Neçə ömür xar olub.
Haqq qulağı kar olub,
Ərənlərin versin hay,
Haray, ay ellər, haray!

İtirmişik imanı.
Ulu haqqa gümanı.
Gəlib qeyrət zamanı
Səsləşsin o tay, bu tay.
Haray, ay ellər, haray!

Yenə at üstündə təhvil oldu il,
Bir qorxu üşütdu ürəyimizi.
Duyduq ki, qara gün uzaqda deyil,
Pusquda dayanıb güdür o, bizi.

Hey uzun sürmədi bu şəkk arası,
İnsanın qəribə duyumları var.
On doqquzu yanvar, gecə yarısı
Şəhərə gurhagur yeridi tanklar.

Əriş-arğac gəzdi göyü fişənglər,
Bu, gələn bəladan ilkin soraqdı.
Dindi avtomatlar, toplar, tüfənglər,
Güllələr fit çalıb yağdı, nə yağdı!

Od saçdı mərmilər... düz idi hədəf,
Alaq otları tək biçildi insan.
Barıt tüstüsüylə doldu hər tərəf,
Axdı su yerinə küçəlrdə qan.

Silahlar susmadı ta sübhə qədər,
Yazıq anaların yarıldı bağrı.
Atalar yollara baxdı mükəddər,
Daşı, divarı da göynətdi ağrı.

O gün ayağından daş asdı səhər,
Ömründən-günündən küskün açıldı.
Vahimə içində donmuşdu şəhər,
Kölgə də kölgədən hürküb qaçırdı.

Dəlik-deşik idi bütün binalar,
Dərin bir hüznlə susurdu hər yan.
Göydən birər-birər ələnirdi qar,
Uyumuş dənizə çökmüşdü duman.

Meyitlər üst-üstə, qalaq-qalaqdı,
Hələ can verirdi neçə yaralı.
Yollar çuxur-çuxur, yalaq-yalaqdı,
Kim qıydı, ey Bakım, sənə bu halı?!

Danış, əziz şəhər, dilə gəl, danış!
Nə idi təqsirin, günahın sənin?
Qoy eşitsin düşmən, bilsin dost – tanış
Yerdə qalmayacaq bu ahın sənin!

"Azadlıq" meydanı kükrəyib daşır,
Bənzəyir Xəzərin təlatümünə.
Hey "Yasin" oxunur, hamı ağlaşır,
Vətən yas saxlayır bu acı günə.

Tarix dərd görməyib indiki qədər,
Yağır baxışlardan hiddət və qəzəb.
Saç yolur, qəşş edir qızlar, gəlinlər,
Sonuncu həddədək gərilib əsəb.

Gəlir cənazələr çiyinlər üstə,
Tərəzi gözü tək yırğanır meydan.
Musiqi çalınır həzin, ahəstə,
Sinələr dağlanır şivəndən, vaydan.

Boylanıb şimaldan əsən yellərə
Şəhid şəkilləri durur yan-yana.
Əyib başlarnı bayraqlar yerə
Başsağlığı verir Azərbaycana.

Bir bax, öndəki şəkilə,
Gör nə oğlandı, oğlandı!
Baxışı qartal baxışı,
Qızlar oxlandı, oxlandı.

De, kimdə var o qaş, o göz?
Tərif üçün qəhətdi söz.
Bağrım başı oldu köz-köz,
Sinəm dağlandı, dağlandı...

Tükənib ellərin tabı,
Əzabların yox hesabı.
Ağ qalmış ömür kitabı
Nə tez bağlandı, bağlandı?!

Ehey, yağı, indi dayan!
Nifrətim eylədi tüğyan.
Alacağam birə-yüz qan,
Topum yağlandı, yağlandı!

Gurlayır mikrofon, ərşə çıxır səs,
Dəyişir natiqlər biri-birini.
Tutulur boğazlar, təngiyir nəfəs,
Xalq boğur içində öz qəhərini.

O çəkir dərdini mərd ürəyində,
Dözümdən yoğrulub onun mayası.
Burda ağsaqqalın, ağbirçəyin də
Üzündən oxunur abır-həyası.

Daim uca tutub arı-namusu
İsmətli nənələr, ulu babalar.
Oddan, sudan keçib mərdin hamısı,
Bizə belə seçib yolu babalar.

Şərəflə ömr edib, şöhrətlə ölmək
Bu türk övladına bir xoş niyyətdir.
Yaxşını qoruyub yaşada bilmək
Sabaha örnəkdir, əbədiyyətdir!

Aman, aman, Dağüstü bağ,
Nə qəmlidir bu görkəmin,
Sıralanıb qəbri səndə
Neçə-neçə ömrükəmin.

Dünən onlar bu yerlərə
Qoşalaşıb gələrdilər.
Ağac altı bir xəlvətdə
Şən-şən deyib gülərdilər.

Bəli, bura görüş yeri
sevgililər oylağıdır.
Hər bucağı göz oxşayır,
Könül açır, qəm dağıdır.

Bir cənnətdir dörd tərəfi
payızı xoş, yayı sərin.
Ləzzət verir bahar çağı
Burda ətri çiçəklərin.

Heç seyrəlmir get-gəlləri
buz nəfəsli sərt qışda da.
Üz göynədən, ilik çapan
küləklərdə, yağışda da.

Dağüstü bağ! Başlandımı
daha sənin yaman günün?
Ah, nə məhzun, nə dalğınsan,
qəlb sızladır yazıq hüsnün.

Xəzan vurmuş ağaclar da
yaş axıdır gilə-gilə.
Gətirmişik şəhidləri
qoynundakı son mənzilə...

Siz ey, qeyrət timsalları
qəddarlığın qurbanları!
Sizə alqış deyir indi
yer üzünün insanları.

Cavan, nakam ölsəniz də
bəxtəvərsiz, siz bəxtəvər!
Bu gün vida laylanızı
bir ağızdan çalır ellər.

Mən əminəm, hünəriniz
tarixlərə yazılacaq.
Sizə qıymış iblislərin
qəbri dərin qazılacaq!

Rahat yatın, igidlərim!
Günahsız qan batan deyil.
Yaşayacaq xatirəniz
Ürəklərdə nəsil-nəsil.

Budur, baxın, bu dağ üstə
ucalmışdır abidəniz.
Millətimin səcdəgahı
olubsunuz əbədi siz!

Düzəlt müdrik xalqım, düzəlt qəddini,
Məyusluq, məhzunluq yaraşmır sənə.
Quduz düşmənlərə göstər həddini,
Boyun əyməyibsən sən hər yetənə.

Cəsur Babəkin var, Cavanşirin var,
Məğrurluq çağlayır sənin qanında.
Şöhrəti, şərəfi hər zaman yaşar
Şah İsmayılın da, Səttar xanın da.

Cahanda tay hanı qoç Koroğluna?
Kərəmin bir igid, Nəbin bir igid.
Tarix güllər səpib zəfər yoluna,
Yatır yer altında neçə min şəhid.

Basılmaz qaladır hər dağın, daşın,
Qəmin kəm, ey xalqım, sənin qəmin kəm!
Keçər bu dərdin də, sağ olsun başın,
Səbrin bir dəryadır, iradən mətin,
Qəmin кəm, ey xalqım, sənin qəmin kəm!

Babanlı V. Elegiya : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.39-44.